# Ədalət mühakiməsinin səmərəliliyinin təmini islahatların başlıca hədəfidir

**Hər bir xalqın taleyini müəyyən ziddiyyətli və mürəkkəb mərhələdə edilmiş tarixi seçimin məzmunu şərtləndirir. Məhz bu mərhələdə meydana çıxan fenomenal liderlər xalqın əsrlər boyu formalaşan və müasir ümumbəşəri dəyərlərlə çuğlaşan siyasi dünyagörüşü əsasında özlərinin mükəmməl dövlətçilik konsepsiyasını ortaya qoyur, beləliklə, pozitiv rakursda siyasi varislik ənənələri formalaşdırırlar. Müəyyən səbəblər üzündən Azərbaycanda ötən əsrədək tarixi irs və ənənələr əsasında milli dövlət ideallarını reallaşdıran, onu qoruyub saxlamaqla, inkişaf etdirməklə tarixdə əbədiyaşarlıq hüququ qazanan liderlər yetişməmişdir. Yalnız ötən əsrin ortalarında—1969-cu ilin 14 iyulunda ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə irəli çəkilməsi ölkə həyatında nurlu bir yolun başlanğıcı olmuşdur.**



Xalqımızın ötən əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət olan Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli ideallara bağlı olmuşdur. Anadan olmasının 92-ci ildönümünü qeyd etdiyimiz ümummilli lider bütün zəngin və mənalı həyatı boyu daim xalqını, vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir. Heydər Əliyev dühası milli tarix üçün böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi tutmuş, özünün siyasi bacarığı sayəsində Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi böhrandan xilas etmiş, xalqının qəlbində sabaha inam hissi yaratmağı bacarmışdır.

Ümummilli lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə böyük təzyiqlərlə üzləşsə də, heç bir riskdən çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, milli adət-ənənələri və düşüncə sistemi barədə dolğun təsəvvürlər formalaşdıra bilmişdir. Heydər Əliyev fenomeninin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Ulu öndər Heydər Əliyevin sovet siyasi arenasında rəhbərliyə gəlməsi bütün maneələri dəf edərək müstəqil düşüncəyə yol açmışdır. Hələ ötən əsrin 70-80-ci illərində ulu öndər sanki Azərbaycanın müstəqil dövlət olacağını görmüş, buna zəruri zəmin formalaşdırmaq üçün uzaqgörənliklə fəaliyyət göstərmişdir.

Ulu öndər Heydər Əliyev ideoloji baryerlərin son dərəcə sərtliklə işə düşdüyü bir zamanda Azərbaycanın müstəqilliyi üçün iqtisadi-siyasi zəmin formalaşdırmağa çalışmış, milli ruhun yüksəlməsinə xidmət edən davamlı addımlar atmışdır. Heydər Əliyevin o dövrdə repressiya qurbanlarına bəraətin verilməsi istiqamətində gördüyü işlər də azərbaycançılıq məfkurəsinin güclənməsinə xidmət etmişdir. Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanın korifey şəxsiyyətlərinin adlarını əbədiləşdirməklə, əsərlərinin təkrar nəşrini təşkil etməklə, heykəllərini ucaltmaqla, muzeylərini yaratmaqla xalqın tarixini, mədəniyyətini, ədəbiyyatını yaşatmaq, bütövlükdə isə milli yaddaşın qorunub gələcək nəsillərə çatdırmaq məqsədini güdmüşdür. Ümummilli lider 60-cı illərdə milli düşüncə sahibi olduqlarına görə təqibə məruz qalmış görkəmli Azərbaycan yazıçı və şairlərini, tarixçilərini məhv olmaq təhlükəsindən hifz etmişdir.

Yunan filosofu Platon yazırdı ki, "Ədalətlə idarə olunan cəmiyyətdə yaxşı vətəndaş olmaq asandır". Ulu öndər Heydər Əliyev də ədalət meyarını bütün ölçü və qəliblərin, ideoloji prinsiplərin fövqündə saxlayırdı. Heydər Əliyevin yaratdığı spesifik idarəçilik sisteminin üstün cəhətlərindən biri də məhz kadr seçimində sosial ədalətsizliyin aradan qaldırılması—daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellektual səviyyəsi və yüksək bilik səviyyəsi ilə fərqlənən mütəxəssislərə üstünlük verilməsi idi. Azərbaycana birinci rəhbərliyi dövründə ümummilli lider təhsil sistemində özünü qabarıq göstərən neqativ tendensiyalara qarşı amansız mübarizəyə qalxmış, imkansızların, zəhmətkeş övladlarının o zamankı Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmasına imkan yaradan şəffaf mühitin formalaşdırılmasına nail olmuşdu. Bu gün adlısanlı hüquqşünasların böyük əksəriyyəti ulu öndərin bu addımını böyük ehtiram və rəğbətlə xatırlayırlar.

Fransız mütəfəkkiri Ş.Mönteskyenin fikridir—liderlik lazımi anda cəsarət nümayiş etdirmək bacarığıdır. Tarixi təcrübə göstərir ki, yalnız milli iradənin, irs və ənənələrin, düşüncə sisteminin parlaq təzahürü kimi yaranmış dövlət modeli tarixin sərt sınaqları qarşısında duruş gətirərək milli inkişafın əsasına çevrilir. Hər bir müstəqil dövlətin yaranmasına, möhkəmləndirilməsinə və qorunub saxlanılmasına doğru uzanan mürəkkəb ictimai-siyasi proseslərin episentrində də məhz lider və şəxsiyyət amili dayanır. Azərbaycanın milli inkişaf modelinin banisi, ulu öndər Heydər Əliyev də təkamülə əsaslanan tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirməklə bərabər, dövlətçiliyin ideoloji, siyasi, hüquqi və iqtisadi əsaslarını fundamental elmi prinsiplər əsasında müəyyənləşdirmişdir.

Dövlət müstəqilliyinin ilk illərində hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda ciddi sınaqlarla üzləşən Azərbaycan Respublikası məhz ulu öndər Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi islahatlar nəticəsində cəmiyyətin təkamül sistemini, dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların müasirləşdirilməsini və təkmilləşdirilməsini davamlı prosesə çevirmişdir. Ötən 22 ildə respublikanın demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində yüksək nailiyyətlər qazanması da bilavasitə vətəndaş cəmiyyəti quruculuğuna hesablanmış ədliyyə və məhkəmə-hüquq islahatlarının respublikanın sosial-iqtisadi inkişaf dinamikası ilə uzlaşdırılması nəticəsində mümkün olmuşdur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur.

Konstitusiyanın qəbulundan sonra respublikada ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edən məhkəmə-hüquq islahatları həyata keçirilmiş, bu məqsədlə zəruri qanunvericilik bazası formalaşdırılmışdır. Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq insan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilmiş, respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşulmuş, 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyulmuşdur. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edilmiş, əfv və amnistiya aktlarının geniş tətbiqinə başlanılmışdır. Ölkədə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olunmuş, bu sahədə xüsusi Dövlət Proqramı hazırlanaraq həyata keçirilməsinə başlanılmış, İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradılmışdır.

Aparılan məhkəmə-hüquq islahatı nəticəsində Konstitusiya Məhkəməsi təsis olunmuş, 2000-ci ildən yeni, əvvəlki məhkəmə sistemindən köklü surətdə fərqlənən və insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başlamışdır. Həmin vaxtdan etibarən keçmiş sovet respublikaları arasında, demək olar ki, ilk dəfə Azərbaycanda həbs və insan hüquqlarını məhdudlaşdıran digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi məhkəmələrin müstəsna səlahiyyətinə aid edilmişdir. Həmçinin məhkəmələr üzərində prokurorluq və ədliyyə orqanlarının nəzarəti ləğv olunmuş, demokratik məhkəmə nəzarəti institutu formalaşdırılmışdır.

2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlər şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə imtahanla seçilmiş, nəticədə hakim korpusunun 60 faizi təzələnmişdir. Haşiyə olaraq bildirim ki, 2000-ci il sentyabrın 2-də Heydər Əliyevin yüksək etimadı ilə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinə hakim təyin olunmuş şəxs kimi həmin dövrü bu gün də həyəcanla, ulu öndərin ruhuna dərin ehtiramla xatırlayır, etimadı daim doğrultmağa çalışıram.

Ümummilli lider Heydər Əliyev sonrakı mərhələdə də ölkə həyatının bütün sahələrində çevik və işlək mexanizmlər üzərində çoxşaxəli islahatları təmin etmişdir. Hüquqa və ədalətə söykənən mülki cəmiyyətin formalaşdırılması üçün, ilk növbədə, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması prosesi davam etdirilmişdir.

Ulu öndər Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü həm də əsasını qoyduğu siyasəti yeni dövrün tələblərinə uyğun davam etdirə biləcək qüdrətli lider və etibarlı davamçını yetişdirməsindədir. Ədalət mühakiməsinin səmərəsinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xüsusi diqqət yetirən dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə son 11 ildə məhkəmə sisteminin modernləşməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla davam etdirilmişdir. Bunun nəticəsidir ki, hazırda respublikada ədalət mühakiməsi hakimlərin müstəqilliyi təmin edilməklə, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, qərəzsiz, ədalətlə və qanunlara uyğun həyata keçirilir. Məhkəmələrin işinin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə 2004-cü ilin dekabrında "Məhkəmə-Hüquq Şurası haqqında" yeni qanun qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir.

Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi" və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərmanı keyfiyyətcə yeni mərhələdə ölkəmizdə çoxşaxəli hüquq islahatları üçün baza rolunu oynamışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn bu mühüm fərman əsasında regionlarda yeni apelyasiya və inzibati-iqtisadi məhkəmələr yaradılmışdır. Fərman əsasında, həmçinin Ədliyyə Akademiyası yaradılmış, Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqlənmiş, məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olunmuş, hakimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Həmin fərmanın davamı kimi ölkə başçısının 17 avqust 2006-cı il tarixdə imzaladığı "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında" fərman hakimlərin sayının 157 ştat artırılmasını nəzərdə tutmaqla, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etmişdir. Bu addımlar sonrakı illərdə də davam etdirilmiş, respublika üzrə hakimlərin sayı 2 dəfədən çox artırılaraq 600 nəfər müəyyən edilmişdir.

Hakimlərin seçimi prosesi Hakimlərin Seçki Komitəsi tərəfindən test üsulu ilə, tamamilə obyektiv, şəffaf və demokratik şəraitdə həyata keçirilmişdir. Son illərdə ümumilikdə 300-dən çox hakimliyə namizəd test üsulunda uğur qazanaraq bu vəzifəyə təyin olunmuşdur. Bu prosesin beynəlxalq norma və standartlara tam cavab verdiyi, ədalətli və şəffaf mexanizmlər əsasında reallaşdırıldığı Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunmuş, Azərbaycan təcrübəsi digər ölkələrə nümunə kimi göstərilmişdir.

Məhkəmə-Hüquq Şurasının rəhbərliyi altında son illər hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin daha şəffaf, obyektiv, çevik mexanizmlərinin müəyyənləşdirilməsi ədalət mühakiməsinin səmərəliliyini və keyfiyyətini artırır. Obyektiv və ədalətli qiymətləndirmələr və təyinatlar nəticəsində cəmiyyətin məhkəmələrə olan inamı daha da möhkəmlənir, ölkəmizin beynəlxalq imici yüksəlir. Ötən illərdə hakimlərin maddi təminatının yaxşılaşdırılması məsələsi də diqqət mərkəzində saxlanılmış, 2000-ci illə müqayisədə onların əməkhaqqı orta hesabla 30 dəfə artırılmış, bütün məhkəmə aparatlarının tərkibi yenidən müəyyən olunmuşdur.

Ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarına yeni nəfəs verən və əhəmiyyətli sayıla biləcək hadisələrdən biri də 27 dekabr 2011-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" sərəncamın imzalanması olmuşdur. Sərəncam məhkəmə-hüquq islahatlarının sürətli və keyfiyyətli həyata keçirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, həmçinin normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşımışdır.

Sərəncamda diqqəti cəlb edən məqamlar əsas etibarilə insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının Azərbaycan Respublikasının məhkəmələri tərəfindən tətbiqi üzrə araşdırma və tədqiqatların aparılması, xüsusilə, İnsan Hüquqlarına dair Avropa Konvensiyasının məhkəmə aparatı işçiləri tərəfindən öyrənilməsinin təmini, dolayısı ilə məhkəmə qərarlarının vaxtında və dəqiq icrasını təmin etmək məqsədi ilə icra tədbirlərinin səmərəliliyinin artırılmalı olmasının zəruriliyi ilə bağlıdır.

Azərbaycan Respublikasının Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi çərçivəsində 2014-cü ilin oktyabr ayında keçirilmiş "İnsan Hüquqları və Əsas Azadlıqları haqqında Avropa Konvensiyasının ölkədaxili tətbiqində milli hakimlərin rolu" mövzusunda beynəlxalq konfrans bir daha təsdiqləmişdir ki, respublikamız ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə beynəlxalq təcrübənin öyrənilməsini prioritet məqsədlərdən biri hesab edir. Tədbirdə də vurğulandığı kimi, Azərbaycanda məhkəmə qərarlarının böyük əksəriyyəti Avropa Məhkəməsinin presedent hüququ nəzərə alınmaqla, Konvensiyanın tələblərinə uyğun şəkildə həyata keçirilir.

2014-cü ilin oktyabrında Nazirlər Kabinetində Dünya Bankı və Azərbaycan Hökuməti arasında "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" adlı yeni layihənin imzalanması mərasimi keçirilmişdir. Layihənin keçirilməsində məqsəd məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmə sisteminin yaradılması, ədalət mühakiməsinin həyata keçirilməsinin sürətləndirilməsi, elektron hüquqi xidmətlərin genişləndirilməsi ilə ədliyyə sisteminə dair vətəndaşların məmnunluğunun artırılmasını təmin etməkdir. Layihə çərçivəsində yeni məhkəmə və məhkəmə komplekslərinin tikintisi, elektron məhkəmə informasiya sisteminin və digər qabaqcıl İKT-lərin geniş tətbiqi, ədliyyə işçiləri və hakimlərin peşəkarlığının yüksəldilməsi, hüququn müxtəlif sahələri üzrə vətəndaşların məlumatlılığının artırılması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında sərəncamı" da bu baxımdan mühüm əhəmiyyətə malikdir. Yeni sistemin yaradılmasında məqsəd ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, vətəndaş hüquq və azadlıqlarının səmərəli müdafiəsidir. "Elektron məhkəmə" sistemi vətəndaşların məhkəmələrlə münasibətlərinin daha çevik və işlək mexanizmlər əsasında qurulmasına, süründürməçilik hallarının aradan qaldırılmasına, işlərə baxılmasında qanunvericiliyin tələblərinə tam riayət olunmasına imkan yaradacaq, operativliyi və şəffaflığı maksimum dərəcədə təmin edəcəkdir. Yeni sistemin tətbiqi vətəndaşlara məhkəmələrə elektron formada müraciət ünvanlamaq, proses barədə məlumatları elektron daşıyıcıda operativ şəkildə əldə etmək, məhkəmə proseslərini audio-video və digər texniki vasitələrlə qeydə almaq, habelə prosesi onlayn rejimdə müşahidə etmək imkanı yaradacaqdır. Nəticədə vətəndaşların vaxt itirərək şəxsən məhkəmələrə gəlmələrinə və poçt xidmətlərindən istifadə etmələrinə ehtiyac qalmayacaqdır. Məhkəmə çağırışlarının və bildirişlərin, habelə qəbul olunmuş qərarların elektron qaydada ötürülməsi prosessual sənədlərin vaxtında çatdırılmaması, bununla da şikayət etmək hüququnun pozulması iddialarını da aradan qaldıracaqdır. Yeni sistemə əsasən, tərəflər vəsatət və şikayətləri də informasiya texnologiyalarından istifadə etməklə elektron poçt vasitəsilə göndərəcək və qəbul edəcəklər.

*Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının praktik nəticələrini hər bir vətəndaş öz gündəlik həyatında hiss edir və minnətdarlıqla qarşılayır. Möhtərəm Prezidentimiz İlham Əliyevin 2013-cü il 1 noyabr tarixli sərəncamı ilə Masallı Rayon Məhkəməsinin sədri vəzifəsinə təyin olunmuşam və fəaliyyətimdə daim bu yüksək etimadı doğrultmağa çalışıram. Ümumilikdə, Masallı Rayon Məhkəməsinin hər bir hakimi fəaliyyətində ölkə rəhbərliyinin və Məhkəmə-Hüquq Şurasının müəyyənləşdirdiyi vəzifələri rəhbər tutmağa, ilk növbədə, ədalət mühakiməsinin səmərəliliyini təmin etməyə, qanunun aliliyini qorumağa, vətəndaş hüquq və azadlıqlarını yüksək səviyyədə təmin etməyə çalışır. Ürəkdən inanıraq ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın ədliyyə və məhkəmə sistemi daha da müasirləşəcək, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində öz sözünü deyəcəkdir.*

**Hilal XƏLİLOV,**
**Masallı Rayon Məhkəməsinin sədri.**